# ŞERİMDƏN DÖRD MİSRA DÖRD OĞUL KİMİ, ÇIXIB CƏNAZƏMİN ALTINA GİRƏR...



Məmməd İSMAYIL

## ŞERİMDƏN DÖRD MİSRA DÖRD OĞUL KİMİ...

Önümdə gələcək qəbir daşları
Özünə bir çəkir, bir çəkər məni.
Nə bəxt, nə gözəllik, nə göz yaşları
Çəksə də beş qarış yer çəkər məni.

Gəncliyim nə idi, sinəmi yar bax,
Gör ömür hayandan hayana varır.
Yelin qanadında yaralı yarpaq,
Özünə ölməyə bir yer axtarır..

Yaz ötdü, arxada buraxdıq yayı,
Qəfil ayrılıqlar ölümdən betər.
Əlləri hər yandan üzülən payız
Qışın qucağında ölməyə gedər

Çıxar axırıma qürbət iqlimi,
Burda gərək varmı boş-boş təsvirə;
Şerimdən dörd misra dörd oğul kimi,
Çıxıb cənazəmin altına girər..

## DUEL

*(M.Lermontov üçün)*

Burada bir şair ölüb
Bura duel yeridi.
Yüz illik göz yaşından
Yaranan göl yeridi...

Yuxusuna girənlər
Nəydi axır zamanlar.
Başınamı gəlirdi
Ürəyinə damanlar?!

Piterdən Qafqazacan
Duelimi gəzirdi?
Ya başqa ölümü yox
Bu ölümü gəzirdi?!

Könül verib yalana,
Şər dediyi bu şərmi?
Demonla dost olana
Ölüm yaxın düşərmi?

Ölümün qonşuluğu
Fəsillərin qış yeri.
Yoxsa, beləmi olur
Ölümlə görüş yeri?!

Ölüm ömrün ardımı
Əfsanədir gerisi
Yerdə yaşayardımı
Göydən enən birisi..

Bəlkə xəbərçisidir
Nə deyim uzun-uzun: -
Yerdə keçən ocaqlar
Göydə sönən ulduzun...

Əcələ qapı açar
Qəfil güllə yarası.
Yaşa yaşaya bilsən
Ölüm-qalım arası
Göy üzündə qaralan
Bulud yerinə ahmı?
Damarından car olan
İşlədiyi günahmı..?

## ORDA RUHLAR ALƏMİNDƏ

Orda, ruhlar aləmində filan oğlu filankəsdim,
Göy üzündən yer üzünə icazəsi olan kəsdim
Tale seçdi, öz xoşuma seçilmədim, seçilməzdim
Bax, beləcə seçkin etdi seçkim məni

Aldanmazdım, bir ilahi güc aldatdı, güc aldatdı?
Hayandasa işlədiyim suç aldatdı, gec aldatdı?
Bir aldatdı, iki aldatdı, üç aldatdı, necaldatdı
Neçə dəfə aldadacaq eşqim məni

İstəyimin son ünvanı nədən səndin
Nədən səndin?
O qürbətdən bu qürbətə sevgi adlı vətən səndin,
Nədən səndin?
Gəlib yollar ayrıcında ruhumu göynədən səndin
Nədən səndin?

Heç kim məni fərq etməzdi, sənin qədər,
Heç kim məni.
Heç kim məni dərk etməzdi sənin qədər,
Heç kim məni.
Heç kim məni tərk edməzdi sənin qədər,
Heç kim məni!

## AY

Günəşin qüruba endiyi yerdə
Kəsişdiyi yerdə payızla qışın.
Gələn martıların səsidi, bir də
Boğaz sularına yağan yağışın...

Ay da buludlardan duyar bu səsi,
Yerin qanı olub qaralanda şər.
Boğaz sularına yansıyan əksi
Qurşun dalğalarda atılıb düşər...

Göydə martıların saldığı haray,
Qəribin qürbətdə son ümid yeri.
Gecənin üçündə bayırdakı ay,
Bir də yad diyarın doğmaca ətri..

Həsrətdən orağı dönər suala,
Nə deyək gözünü qırpmayan aya?
Qorxar, birdən yatıb yuxuya qala,
Göydə gəzdiyini yerdə tapmaya...

## TANRIYA QALDI...

Yaşıl işıqları keçdi ömrümün
Axırda ümidim sarıya qaldı.
Yazdan yarımadı doğulduğum gün
Payızda yarıdan yarıya qaldı..

Çağırma, geriyə dönməz o çağlar,
Külünə yenilib söndü ocaqlar...
Ömür həvəsindən düşdü yarpaqlar,
Budaqlar ağrıya-ağrıya qaldı

Bircə mən bilirəm nə çəkir təklər
Nə keçmişlər varmış, nə gələcəklər
Soldu çəmənlərdə güllər, çiçəklər
Ağrısı, acısı arıya qaldı

Bu yaşda nə gözüm, nə göz yaşlarım,
Könlümün gözündən düşdü saçlarım.
Boynu buruq qalan ehtiyaclarım,
Təsəlli arıya-arıya qaldı

Daha kərəmlərin yoxdu, Lələsi,
Dünya dedikləri ölüm tələsi
Bundan beləsimi? Bundan beləsi
Mənə yox, sənə yox, Tanrıya qaldı

## BƏLKƏ DƏ GƏNCLİYİM BELƏ YAZARDI...

- Yüz yol çəkdim cəbrini,
Cəbirdin, həndəsəydin.
Ölümə də gedərdim,
Gedərdim, sən desəydin...
- Burax, getsin işinə
Cəbrini, həndəsəni.
Mən səni sevdiyimdən
Sən də səni sevəydin
Sevəydin sən də səni..

Baha sataydın, ucuz
Qiymətə satdın məni.
Məndən gözəli çıxdı
Gedib aldatdın məni.

Ürəkdən sevilməyin
Ürəyinə yatmadı.
Bu dünya aldatmaca
Kim kimi aldatmadı.

Yalan-filan deyildi
Duz yüküydü yükümüz;
Bir suçun öhdəsindən
Gəlmədəydik ikimiz...

Bu işin arxasından
Taleyin əli çıxsa.
Qız, səni aldadımmı
Səndən gözəli çıxsa?!

## YERALTI ZÜLMƏTİ SEYR EDƏN SULAR...

Varlığı var süslər, yoxluğu heçlik
Nə varsa, Tanrısal eşqin izidir.
Yazbaşı qarşına çıxan nəmişlik,
Gələcək bulağın xəbərçisidir.

Qürbətin nəfəsi dil verər qəmə,
Ağaclar zoğ verər calaq yerindən.
Qarımış ağacdan meyvə gözləmə
Su gəzmə qurumuş bulaq yerindən.

Qoy açım hər qönçə bir gizli sirsə
Ömrün gənc çağı nə, qoca çağı nə?
Əgər yeraltında qala bilirsə
Suyun yerüstünə canatmağı nə?

Bir gün başa varar bəlkə arzular
Bəlkə gözlənilən bir vədə gələr;
Yeraltı zülməti seyr edən sular,
Çıxıb yer üstünə heyrətə gələr.

Sonsuzmu Günəşin dünya görüşü
Niyə göy başıdır, yer ayağıdır?
Göydə bulud olan suya nə düşüb
Bir də yağış olub yerə qayıdır.

Yerin qəlbi kimi sular ərköyün
Nə bu ayrılıqlar, bu birləşmələr?
Qalıb arasında yer ilə göyün
Dərədə gözləri dolan çeşmələr

Boşuna getməz ki, çəkdiyin əmək
Bu dünya - bələkdən özünü açmaq;
Kiminsə yoluna uğur diləmək,
Ya da bir bulağın gözünü açmaq!!!

* * *

Bir vaxt qulağına demişdi əlli,
Ömür dedikləri quru təsəlli.

Gördün ki, qapını döyəndə altmış,
Tale deyilənin qulağı batmış...

Hələ yetməmişdən deyirdi yetmiş,
Gələnlər gəlmişdi, gedənlər getmiş...

Deyirdi səksənə-səksənə səksən
Uzaq xatirələr küncündə təksən!

Gələrmi səksəndən sonrakı doxsan,
Gəlsə də, yaşaya-yaşaya yoxsan...

* * *

Bu dünyaya gəlməmişdən
Başdan bir xəbər alsaydım

Adı, ya ürəyi daşdı
Daşdan bir xəbər alsaydım

Niyə ayaqlar baş oldu
Başdan bir xəbər alsaydım

Soyuqluğu hardan alır
Qışdan bir xəbər alsaydım

Səksənəmi, doxsanamı,
Yaşdan bir xəbər alsaydım